# Hörmətli Adnan Oktarın yeni şərhləri (18 yanvar 2015; 23:00)

HÖRMƏTLİ ADNAN OKTARIN SİLAHIN QORXUDUCU GÜC OLMASI İLƏ ƏLAQƏDAR AYƏ İZAHLARI

Şeytandan Allaha sığınıram. Allah deyir: **“(Düşmənlərə) qarşı bacardığınız qədər qüvvə və döyüş atları hazırlayın ki, bununla Allahın düşmənini, öz düşməninizi və onlardan başqa sizin bilmədiyiniz, lakin Allahın bildiyi kimsələri qorxudasınız. Allah yolunda nə xərcləsəniz, əvəzi sizə tam ödənilər və sizə zülm edilməz”. (Ənfal surəsi, 60)** Demək ki, məqsəd daşındırmaqdır. Silahın qorxuducu gücünü istifadə edək. Sən dəbdən düşmüş G3-lərlə, paslı silahlarla çıxarsansa, əlbəttə ki, adam səndən qorxmaz.

**“... arxalarında olan kimsələri də (qorxudub)” (Ənfal surəsi, 57)**

**“Sizdə bir güc və sərtlik görsünlər”. (Tövbə surəsi, 123)** Adam bu gücü görsə qorxub çəkinər. PKK-nın bu qədər şişməsinin, qudurmasının səbəbi ortada əsgərin, polisin olmaması, silahların da köhnə olmasıdır. Adamlar, məsələn, Mardində yüz əlli adamla artistlik edir. Bu çaqqallar ən çox yüz əlli adamdan ibarətdirlər. IŞİD bunları tutduğu hər yerdə biçir. Sərhəd xaricinə çıxdıqlarında doğranırlar. Bəzi yerlərə sığındılar, indi onları oralardan da çıxaracaqlar, boğacaqlar. Bunların bir şey edəcək bir gücü qalmadı.

Zülqərneyn, dövrün mehdisi idi. **“Gəlin öz qüvvənizlə mənə kömək edin, mən də sizinlə onlar arasında möhkəm bir sədd çəkim”. (Kəhf surəsi, 95)**

**“Mənə dəmir kütlələri gətirin”. (Kəhf surəsi, 96)** Silah sənayesinin ən əhəmiyyətli maddəsidir. Məhz bu dəmirdən olan silahlarla qorxudacağıq.

**“Geniş zirehlər düzəlt və halqaları toxuduqda ölçüyə riayət et. Yaxşı işlər görün!” (Səba surəsi, 11)** Zirehli maşınlar. Bu, Quranın əmridir.

**“Yüngül və ağır silahlarla döyüşə çıxın” (Tövbə surəsi, 41)** Məsələn, havadan raketlər beş min metr, on min metr mənzilli raketlər olmalıdır. Və yüz minlərlə raket olmalıdır. Məsələn, PKK onun fərqinə varsa, iş bitdi. Məsələn, sənin beş min metr mənzilli yüz min raketin olsa, aydındır ki, ora cəhənnəmə dönəcək. Adam, oturduğun yerdə cəhənnəmə çevirəcəyini bildiyi halda sənə necə qoçuluq etsin?

https://www.harunyahya.info/az/meqaleler/hormetli-adnan-oktarin-yeni-serhleri-18-yanvar-2015-2300